# Xocalı soyqırımı tarixdə ağlasığmaz vəhşilik aktıdır

## "CASPİAN PİPE COATİNGS" MMC ŞİRKƏTİ XOCALI FACİƏSİNİN 23-CÜ İLDÖNÜMÜ İLƏ BAĞLI ANIM TƏDBİRİ KEÇİRDİ



Fevralın 26-da "Caspian Pipe Coatings" MMC (CPC) şirkətinin baş ofisində Xocalı faciəsinin 23-cü ildönümü münasibətilə anım tədbiri keçirildi. Əvvəlcə faciə qurbanları bir dəqiqəlik sükutla yad edildi. Xocalı faciəsi haqqında qısa videoçarx nümayiş etdirildi. Tədbirdə CPC-nin rəhbərliyi və əməkdaşları və ShawCor şirkətinin nümayəndələri iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan CPC-nin direktoru Azər N. İsayev Azərbaycan tarixində qanlı hərflərlə yazılmış bu faciə və onun başvermə səbəbləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi. "Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Azərbaycan xalqına, bütövlükdə insanlığa qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir." Şirkətin direktoru bildirdi ki, bu faciənin geniş ictimaiyyətə çatdırılması üçün ümummilli lider Heydər Əliyevin mühüm xidmətləri olub. Məhz Ulu Öndərin təşəbbüsü ilə Milli Məclisdə ilk dəfə bu məsələyə siyasi qiymət verildi. "Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılır. Ölkə Prezidentinin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın apardığı "Xocalıya ədalət!" kampaniyası artıq öz bəhrəsini verməkdədir" deyən A.N.İsayev Azərbaycanın üzləşdiyi bu ədalətsizliyə tezliklə son qoyulacağına ümid etdiyini bildirdi.

Sonra, CPC-nin əməkdaşları Xocalı faciəsi, erməni silahlı dəstələrinin törətdiyi vəhşiliklər və bu cür qeyri-insani hərəkətlər nəticəsində həyatını itirmiş və sağ qalmış insanlar haqqında məlumat verdilər.

Tədbirdə iştirak edən əcnəbi nümayəndənin faciə və onun qurbanları haqqında daha dolğun məlumat əldə edə bilməsi üçün qeyd olunan məlumatlar, həmçinin ingilis dilinə tərcümə edilmiş şəkildə təqdim edildi.

Sonda CPC-nin direktoru Azər N. İsayev iştirakçılara tədbirə qatıldıqlarına görə təşəkkür etdi. Şirkətin direktoru münaqişənin dinc yolla həll ediləcəyinə ümid etdiyini bildirdi, CPC və ShawCor əməkdaşlarının iştirakı ilə birgə müraciət hazırlamasını və müvafiq beynəlxalq qurumlara təqdim etməsini təklif etdi. "Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır"."

**Orxan Vahidoğlu,**
***"İki sahil"***